№01 (1048) 10-16 yanvar 2019-cu il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Ehtiyac meyarının həddi

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2019-cu il üçün ehtiyac meyarının həddi 143 manat məbləğində təsdiq edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 noyabr 2018-ci il

Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği

2019-cu il üçün yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat məbləğində müəyyən edilsin.

Maddə 2. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 noyabr 2018-ci il

Əmlak Məsələləri Dövlət Komitəsinin bütün fəaliyyət sahələri üzrə göstərdiyi xidmətlər vahid məkanda həyata keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat vermişdir.

Əmlak Xidmətləri Məkanının yaradılmasında əsas məqsəd Əmlak Məsələləri Dövlət Komitəsinin bütün fəaliyyət sahələri üzrə göstərdiyi xidmətlərin vahid məkanda həyata keçirilməsidir. Burada əmlakla bağlı bütün xidmətlər beynəlxalq standartlara uyğun qurulmaqla, şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, xidmətlərin tam elektronlaşdırılması təmin edilib. Məkanda 100-ə yaxın işçi tərəfindən xidmətlərin göstərilməsi nəzərdə tutulur. Burada notarius, bank, memarlıq və layihələndirmə işləri, əmlakın sığortalanması və poçt xidməti nəzərdə tutulub.

Əmlak Xidmətləri Məkanında 1909-2018-ci illərdə daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını özündə əks etdirən müxtəlif dövrlərə aid hüquqmüəyyənedici mülkiyyət sənədlərinin sərgiləndiyi arxiv guşəsi də var.

Dövlətimizin başçısına komitə tərəfindən elektronlaşdırılan xidmətlər barədə məlumat verilmişdir. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və e-Hökumət portalı vasitəsilə təqdim edir.

Daşınmaz əmlakın qeydiyyatı üzrə ödənilən xidmət haqqının və dövlət rüsumunun öyrənilməsi ilə bağlı vətəndaşlar üçün daha çox maraq doğuran "Əmlak kalkulyatoru" iş prinsipləri və "Elektron çıxarışın yoxlanılması" kimi elektron xidmətlər nümayiş olundu. "Elektron çıxarış" xidməti vətəndaş məmur ünsiyyətini tam məhdudlaşdırır. Belə ki, elektron imzaya sahib vətəndaş istənilən yerdən e-Hökumət portalı vasitəsilə xidmətə müraciət edir, müvafiq sənədlərini göndərir, Komitə tərəfindən hazırlanmış elektron çıxarış isə onun portaldakı şəxsi kabinetinə göndərilir. Qısa müddət keçməsinə baxmayaraq, artıq 8 mindən çox "Elektron çıxarış" sahibi var.

Özəlləşdirmə hərraclarının keçirilməsi ilə bağlı 100 nəfərlik hərrac zalında monitorlar vasitəsilə özəlləşməyə çıxarılan əmlaklarla tanışlıq, keçirilən özəlləşdirmə hərraclarında həm canlı iştirak etmək, həm də elektron qoşulmaqla hərraca qatılmaq imkanları yaradılıb. Özəlləşmənin elektronlaşdırılması prosesin sürətlənməsinə və investorların marağının artmasına imkan verib.

Burada gün ərzində 1000-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır. Əmlak Xidmətləri Məkanında, ümumilikdə, Komitənin fəaliyyət sahələrinə uyğun 46 xidmət təqdim ediləcək.

Prezident İlham Əliyevə torpaqların idarə edilməsində istifadə olunan Peyk Müşahidə Sistemi layihəsinin iş prinsipi barədə məlumat verilmişdir. Layihənin məqsədi torpaqlara dövlət nəzarətinin həyata keçirilməsində çevikliyin artırılması, qanunsuz tikililərin, torpağın münbit qatının korlanmasının qarşısının alınması, torpaq tədqiqatı, geobotaniki tədqiqat zamanı yeni texnologiyaların, süni intellektin imkanlarından istifadə edilməsidir.

İqtisadiyyatda daha dinamik inkişaf üçün geniş imkanlar yaranıb

2018-ci ildə Azərbaycanda iqtisadi sahədə artım müşahidə olunub. İqtisadiyyatda ümumi daxili məhsul 1 faizə yaxın artıb, qeyri-neft sektoru 1,3 faiz, qeyri-neft sənayesi 9 faiz, əhalinin gəlirləri 9 faizdən çox artıb. Bütövlükdə, bu artımlar ölkəmizdə xarici ticarət əlaqələrində də öz əksini tapıb. Azərbaycanda ötən dövr ərzində ixrac təxminən 40 faizə qədər, qeyri-neft ixracı 10 faizdən çox artıb, bütövlükdə xarici ticarətin həcmi yüksəlib.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclisin deputatı, iqtisadçı ekspert Tahir Mirkişili deyib. "2018-ci ilin ən böyük siyasi və iqtisadi hadisəsi aprel ayında İlham Əliyevin ölkə əhalisinin böyük əksəriyyətinin etimadı ilə Azərbaycana yenidən Prezident seçilməsidir. Çünki Azərbaycanda həyata keçirilən iqtisadi, siyasi islahatların müəllifi və təminatçısı odur. Məhz İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində 2018-ci ildə iqtisadi inkişaf təmin olunmuş, onun sürəti getdikcə artmışdır", - deyə o, əlavə edib.

Ötən ilin iqtisadi göstəricilərini təhlil edən iqtisadçı ekspert bildirib ki, 2018-ci ilin əvvəlinə nisbətən ilin sonunda strateji valyuta ehtiyatları 3,5 milyard dollara qədər artaraq 45 milyard dolları keçib.

Ötən il ərzində Azərbaycan iqtisadiyyatında makrosabitlik hökm sürüb. İnflyasiya cəmi 2 faizdən bir az çox olub ki, o da əslində, ölkə iqtisadiyyatında dayanıqlı iqtisadi inkişafın təmin olunması mərhələsinə qədəm qoyulması anlamına gəlir. Ötən dövr ərzində ölkədə yeni iş yerləri açılıb, yeni-yeni müəssisələr fəaliyyətə başlayıb. Azərbaycan həm daxildə, həm də beynəlxalq layihələrdə qarşıya qoyduğu hədəflərə nail olub.

Tahir Mirkişili qeyd edib ki, 2018-ci ilin iqtisadi hədəfləri 2017-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdu. Əsas hədəflər makroiqtisadi sabitliyə nail olmaq, qeyri-neft sektorunu inkişaf etdirmək, yeni iş yerlərinin açılması ilə əhalinin maddi-rifah halını daha da gücləndirmək olmuşdur.

Avropa İttifaqına qaz ixracı marşrutunda "Cənub Qaz Dəhlizi" layihəsinin mühüm bir hissəsi olan TANAP-ın açılışının önəmli bir hadisə olduğunu vurğulayan deputat qeyd edib ki, Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması ilə bağlı konvensiya və onun Azərbaycanın maraqlarına uyğun və təklif etdiyi formada imzalanması 2018-ci ilin ən böyük hadisələrindən biridir.

Türkiyədə SOCAR tərəfindən "Star" neft emalı zavodunun açılması ilə Azərbaycanın neft sektorunda yeni mərhələnin başladığını vurğulayan ekspert qeyd edib ki, bu mərhələnin əsas göstəricisi neft məhsullarını emal edərək onları daha yüksək dəyərli məhsula çevirib ölkəmizin həm büdcəsinə, həm də bütövlükdə Azərbaycana valyuta daxilolmalarının həcmini artırmaqdır. O, yeni mərhələnin ölkəmizdə həm də neft sektorunun daha da inkişaf etdirilməsinə gətirib çıxaracağını vurğulayıb.

T.Mirkişili ötən dövr ərzində beynəlxalq nəqliyyat daşımalarında ölkəmizin payının getdikcə yüksəldiyini, həm Şimal-Cənub, həm də Şərq-Qərb istiqamətlərində yükdaşımalarının həcminin çoxaldığını, Azərbaycana valyuta daxilolmalarının bu istiqamətdə artdığını bildirib.

O, 2018-ci ildə turizm sektorunun inkişafını da xüsusi qeyd edib. Azərbaycana gələn turistlərin sayının 6 faizdən çox artdığını və bütövlükdə ölkəmizin turizm sektoruna valyuta daxilolmalarının həcminin çoxaldığını vurğulayıb.

Qeyd edib ki, tədiyə balansında Azərbaycanda xidmət ixracı bütövlükdə ixracın təxminən 27 faizinə yaxınlaşıb ki, bu da ölkəmizin iqtisadi dayanıqlılığı üçün mühüm göstəricilərdən biridir.

Qeyri-rezidentlərin banklardakı əmanətləri azalıb

Qeyri-rezidentlərin banklardakı əmanətlərinin məbləği açıqlanıb.

Ötən ilin noyabrında xaricilərin əmanətləri 84,6 milyon manat azalaraq dekabrın 1-nə 760 milyon manat təşkil edib.

Bu müddətdə xaricilərin milli valyuta ilə əmanətləri 11,5 milyon manat artaraq 98,4 milyon manata çatıb, xarici valyuta ilə əmanətləri isə 96,1 milyon manat azalaraq manat ekvivalentində 661,6 milyon manat olub.

Hesabat dövründə fiziki şəxslərin əmanətləri 8 073,5 milyon manat təşkil edib ki, bunun da 7 313,5 milyon manatı rezident, 760 milyon manatı isə qeyri-rezidentlər tərəfindən yerləşdirilib.

SOCAR "Ukrzaliznıtsi" üçün dizel yanacağının qiymətini azaldıb

"SOCAR Ukraina" Ticarət Evi dekabr ayında keçirilmiş Prozorro hərracının yekunlarına əsasən "Ukrzaliznıtsi" Səhmdar Cəmiyyətində istehsalın təmin edilməsi mərkəzinə çatdırmağı öhdəyə götürdüyü dizel yanacağının qiymətini azaldıb.

"SOCAR Ukraina"dan verilən məlumata görə, bu barədə kontrakta əsasən neft məhsullarının satıcısı 10.000 ton neft məhsulunun hər tonunu 31.968 qrivna səviyyəsində göndərməyi öhdəyə götürüb. Əlavə dəyər vergisi baxımından bu rəqəm tenderin elan edildiyi anda bazar dəyərinə tamamilə müvafiq olub.

Qeyd edək ki, tender proseduru Ukrayna qanunvericiliyinə ciddi riayət olunmaqla həyata keçirilib. Malgöndərmələrin qiymətinə yenidən baxılması barədə danışıqlar isə yalnız şikayət proseduru başa çatandan sonra aparılıb və bu prosedur satışın dayandırılması ilə nəticələnib.

Azərbaycan şirkətinin 2016-cı ildə yürütdüyü ardıcıl siyasət dövlət satınalmalar sistemində bir sıra mühüm dəyişikliklərə səbəb olub və nəticə etibarilə Ukraynanın yanacaq bazarında rəqabətin keyfiyyəti yaxşılaşıb.

"Şahdəniz" yatağından ümumi qaz hasilatı 100 milyard kubmetrə çatıb

"BP Azerbaijan" şirkətindən AZƏRTAC-a bildirilib ki, bu neliyyət yataqdan ilk kommersiya qaz həcmlərinin hasilatına başlandığı və Cənubi Qafqaz Boru Kəmərinin işə düşdüyü elan edilən vaxtdan tam 12 il sonra əldə edilib.

2006-cı il dekabrın 15-də elan edilmiş ilk hasilat yatağın işlənməsinin 1-ci mərhələsinin başlanğıcı idi və o vaxtdan bəri qaz həcmləri uğurla və etibarlı şəkildə Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına çatdırılır. 2018-ci il isə "Şahdəniz" layihəsi üçün növbəti əlamətdar hadisə ilə yadda qalıb. Planlaşdırıldığı kimi, iyunun 30-da "Şahdəniz-2" çərçivəsində Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlanılıb və iyulun sonunda "Şahdəniz Bravo" platformasından ilk qaz əldə edilib.

2006-cı ildən bəri "Şahdəniz" yatağından, həmçinin ümumilikdə 196 milyon barreldən artıq kondensat hasil edilib.

Hazırda "Şahdəniz" yatağından hasilat "Alfa" platformasında təqribən 10, "Bravo"da isə 6 quyudan əldə edilir.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" bu günədək BP-nin dünyada kəşf etdiyi ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kilometr ərazini əhatə edir. Yataq 1999-cu ildə aşkar edilib.

Bütün "Şahdəniz" yatağında hesablanmış ilkin geoloji qaz ehtiyatı təxminən 1 trilyon kubmetrdən artıq və kondensat ehtiyatı isə 2 milyard barrel təşkil edir.

"Şahdəniz-2" ilk dəfə olaraq Xəzər qazını Avropa bazarına çıxaracaq yeni Cənub Qaz Dəhlizinin başlanğıc nöqtəsidir. Sabit pik hasilat zamanı bu layihənin mövcud hasilat həcmlərinə ildə 16 milyard kubmetr qaz əlavə edəcəyi gözlənilir. "Şahdəniz" yatağının ümumi hasilat həcmi ildə 26 milyard kubmetr qaz və gündə 120 min barrel kondensat səviyyəsinə çatacaq.

"Şahdəniz-2" çərçivəsində Xəzər dənizində ilk dəfə yatağın suyun altında işlənməsi reallaşdırılır və bu, BP şirkətinin bu vaxtadək dünyada operatoru olduğu ən iri dəniz infrastrukturudur.

MİDA güzəştli mənzil almaq istəyənlərə müraciət edib

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən istifadəçilərin mənzil seçimi prosesində rahatlığını təmin etmək məqsədilə "Güzəştli mənzil" sistemində bir sıra təkmilləşdirmə (satışın başlanmasına 24 saat qalmış geri sayımın aktivləşməsi, səhifənin açılması və səhifədən-səhifəyə keçid haqqında məlumatın ekranda görünməsi) işləri aparılıb.

Agentlikdən verilən məlumata görə, mənzil seçimi prosesinin bütün mərhələləri ilə yaxından tanış olmaq, "Elektron İmza" və ya "Asan İmza" sertifikatlarından və texniki avadanlıqlarından istifadə bacarıqlarını təkmilləşdirmək istəyənlər yanvarın 12-si saat 15:00-dan saat 15:30-dək keçiriləcək sistemin sınaq mühitində mənzil seçimi edə bilərlər.

Mənzil seçimində bütün əməliyyatlar "Elektron hökumət" portalı üzərindən real vaxt rejimində aparılır və mənzil seçimi prosesi yanvarın 25-də Yasamal Yaşayış Kompleksində keçiriləcək 174 mənzilin seçimi ilə identikdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub

TARAZLI İQTİSADİ SİYASƏT REGİONLARI ƏBƏDİ YÜKSƏLİŞ YOLUNA ÇIXARIB

Azərbaycanın dilbər guşələrindən olan qədim Qəbələ bu gün ölkəmizin ən çox qonaqlı-qaralı məkanlarından birinə çevrilib. Qəbələnin tarixi minilliklərin dərin qatlarına gedib çıxır. Eramızdan əvvəlki dövrlərdə Qəbələ mühüm iqtisadi, siyasi və ticarət mərkəzi kimi Babil, Troya, Pompey, Karfigen kimi dünyanın məşhur şəhərləri ilə müqayisə olunub. Qəbələ həm hərbi-strateji mövqeyinə, həm də təbii-coğrafi şəraitinə görə tarix boyu yadellilərin diqqətini çəkmiş, dəfələrlə dağıdılıb, yenə öz varlığını qoruyub saxlaya bilmişdir. Əsl intibah və yüksəliş mərhələsinə isə Azərbaycan müstəqillik qazandıqdan sonra qovuşmuş, onun tarixi adı özünə qaytarılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qəbələnin bu günü haqqında danışarkən demişdir: "Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastrukturun yaradılmasına, dünya standartlarına uyğun mehmanxanaların tikilməsinə, abad yolların çəkilməsinə xüsusi diqqətlə yanaşılmalıdır". Dövlət başçısının bu çağırışı başdan-başa yenilənən, müasirləşən Qəbələnin bugünkü simasında öz real təcəssümünü tapmışdır.

Vaxtilə Qafqaz Albaniyasının paytaxtı olan Qəbələnin Tarix-Diyarşünaslıq Muzeyində şəhərin 2500 illik tarixini əks etdirən 13750 eksponat mühafizə olunur. Rayonda dövlət qeydiyyatına götürülmüş 93 daşınmaz tarix və mədəniyyət abidəsi mövcuddur. Bütün bunlar Qəbələnin turizm imkanlarını şərtləndirən amillərdir. Həmçinin, yuxarıda deyildiyi kimi, təbii şəraiti, havası, suyu, çayları, dağları, meşələri tarixi abidələrlə bir vəhdətdə birləşərək, Qəbələni turizm üçün əvəzsiz diyara çevirmişdir.

Hazırda Qəbələdə 19 istirahət obyekti fəaliyyət göstərir. Rayonda 7 beşulduzlu, 2 dördulduzlu, 2 ikiulduzlu otel gələn qonaqları və turistləri yüksək səviyyədə qəbul edə bilir. Burada fəaliyyət göstərən mehmanxana tipli obyektlər bir gündə 3000-ə qədər turist qəbul etmək gücünə malikdirlər. Yaradılan yüksək şəraitin nəticəsidir ki, təkcə 2018-ci ildə rayona gələn turistlərin sayı əvvəlki illərə nisbətən dəfələrlə artmışdır.

Dağ-xizək xidmətinin inkişaf etdirilməsi məqsədilə yaradılan "Tufandağ" qış-yay turizm istirahət kompleksi daim yerli və xarici turistlərlə doludur. Qafqaz regionunda ən gözəl əyləncə mərkəzlərindən biri kimi tanınan Qəbələ Əyləncə Mərkəzi unikal istirahət məkandır. Qəbələyə ayaq basan hər kəs Qaraçay çayının hər iki sahilində yerləşən park-bulvar kompleksini gəzməkdən böyük zövq alır.

Turistlərə yüksək xidmətin təşkili üçün rayonda kadr hazırlığına xüsusi diqqət yetirilir. Bu məqsədlə Qəbələdə 2009-cu ildən Turizm və Otelçilik üzrə Peşə-Tədris Mərkəzi fəaliyyət göstərir.

Son illər Qəbələnin iqtisadiyyatı güclənib. Rayonda dünya bazarlarına çıxarılan və özünə layiqli yer tutan müxtəlif növ və çeşiddə məhsul istehsal edən onlarla müasir tipli müəssisə fəaliyyət göstərir. Burada bir saatda 5 ton qabıqlı fındıq və ya 1300 kiloqram təmizlənmiş fındıq ləpəsi emal etmək gücünə malik olan fındıq zavodu fəaliyyət göstərir. Zavod gündə 250 ton fındıq qəbul etmək gücünə malikdir. Burada qurutma sexi də yaradılıb. 2009-cu ildən başlayaraq Qəbələdə "Belterman" markalı pianolar istehsal olunur. "Aqro-Azərinvest" Məsul Məsuliyyətli Cəmiyyətində artıq son dörd ildir ki, şərablar, konyaklar və tünd içkilər istehsal olunur. Hazırda bu müəssisədə bir sıra Azərbaycan şərabları ilə yanaşı, yeni əmtəə nişanları olan "Qəbələ", "İrəvan qalası", "Basarkeçər", "Vedibasar", "Nazlı", "Starıy dvorik", "Domaşneye vino", "Şah", "Şamaxinskaya çariça", "Şamaxinskaya Loza", "Padşah" şərabları da istehsal edilir. İstehsal olunan məhsulun 50 faizindən çoxu Rusiya, Ukrayna, Belarus və Qazaxıstana ixrac olunur. "Aspi-Aqro" MMC-nin Qəbələnin Savalan kəndindəki "Savalan" üzüm emalı və istehsalı zavodunun buraxdığı məhsulların şöhrəti sərhədləri aşıb. Zavod Azərbaycanın şərabçılıq ənənələrini əsas tutmaqla və müasir texnoloji yenilikləri tətbiq etməklə yüksək keyfiyyətli şərab istehsalına nail olmuşdur. "Savalan" üzüm emalı və istehsalı zavodu, həmçinin ting istehsalı və satışı üzrə dünyanın ən qabaqcıl şirkətləri olan İtalyanın "VİVA", "Cooperativi Rausedo", "VCR" və Fransanın "GONTARD", "FREREI" şirkətləri ilə sıx əlaqə qura bilmişdir. Sözügedən şirkətlərin məsləhət və tövsiyələri əsasında Qəbələnin nadir iqlim qovşağına malik olan ərazilərində yeni bağlar salınmışdır. Bu gün "Savalan"da 18 çeşiddə istehsal olunan şərab məhsulları Çin, Ukrayna, Rusiya, Hollandiya, Almaniya, Fransa, Türkiyə, Belarus kimi dövlətlərə ixrac olunur.

Gilan Qida Şəhərciyində istehsal olunan meyvə şirələri və sərinləşdirici içkilər artıq ABŞ, Çin, Yaponiya, Yeni Zelandiya, Malayziya, İsrail, Avstraliya, Türkmənistan, Tacikistan və s. ölkələrin bazarlarına göndərilir.

Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən layihələr və bu fonda reallaşdırılan aqrar islahatlar Qəbələni əsl yüksəliş və tərəqqi yoluna çıxarıb. 2003-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək rayonda 15.990 daimi olmaqla 17.789 yeni iş yerləri açılmışdır ki, bunun da 1.083 nəfəri 2018-ci ilin payına düşür. Rayonda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində də ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Burada istifadəyə verilən Beynəlxalq Hava Limanı, müasir standartlar səviyyəsində tikilən avtomobil yolları, körpülər, su qovşaqları, mühafizə sədləri rayonun iqtisadi imkanlarını bir-beş qat artırmışdır. Bu gün Qəbələyə dəmir yolu xətti çəkilir ki, bu da nəqliyyat kommunikasiya sistemini mükəmməl formaya gətirib çıxaracaq.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə, Uludaş, Tikanlı kəndlərinin və Bum qəsəbəsinin hər birində bir ədəd olmaqla, cəmi 8 subartezian quyusunda qazma işləri başa çatdırılmışdır.

Rayonda sosial problemlərin həlli də diqqət mərkəzində saxlanılır. Yola saldığımız 2018-ci il ərzində Qəbələ şəhərində 120 yerlik uşaq bağçası və körpələr evinin tikintisi, ikimərtəbəli ictimai yaşayış binalarında, akademik Zərifə Əliyeva adına parkda əsaslı təmir işləri başa çatdırılmış, bir sıra yaşayış binalarının dam örtükləri əsaslı şəkildə dəyişdirilmiş, kənd və qəsəbələrdə fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, tibb məntəqələrinin əsaslı təmiri həyata keçirmişdir. 160 çarpayılıq rayon mərkəzi xəstəxana kompleksində təmir-bərpa işləri davam etdirilir.

Bu gün Qəbələ rayonunda aqrar sahənin şaxələndirilmə prinsipləri əsasında inkişaf etdirilməsi üstün mövqeyə çıxarılıb. Bu məqsədlə aqrar bölməyə dövlət dəstəyi artırılır, sahibkarlıq subyektlərinə güzəştli kreditlər verilir və digər yardımlar göstərilir. Hazırda rayonda 7800 hektar meyvə bağları və 621 hektar nümunəvi üzüm bağları mövcuddur. Bu bağlar həm əhalinin tələbatının ödənilməsində, həm də yerlərdə fəaliyyət göstərən emal müəssisələrinin xammal təminatında müstəsna əhəmiyyət kəsb edir.

Məhz bu səbəbdən rayonda meyvə və üzüm bağlarının genişləndirilməsi, məhsuldar sortların əkilməsi, tingçilik təsərrüfatlarının yaradılması istiqamətində işlər davam etdirilir.

Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, indi kənd təsərrüfatının hər bir sahəsinin inkişaf etdirilməsi ölkə üçün vacibdir. Bununla yanaşı, ixracyönlü məhsul istehsalının genişləndirilməsi həmişə diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan fındıqçılığın inkişafı üçün rayonda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuş və bu iş uğurla öz həllini tapmışdır. Rayonda son illər barama və tütün istehsalında da artım dinamikası özünü göstərmişdir. Belə ki, 2018-ci ildə 101 nəfər kümçü tərəfindən 9110 kiloqram barama istehsal edilmiş, 75 hektar sahədə tütün əkilmişdir. Lakin bunlar son həddi deyil. Hər iki sahənin geniş arealda inkişafı qarşıdakı illərin prioritetləri sırasındadır.

Qəbələnin bugünkü simasını görəndə adamın ürəyi açılır. Doğrudanmı bu, 10-15 il öncə olan kiçik əyalət şəhəri Qəbələdir? Bu gün dünyada Qəbələni tanımayan az adam tapılar. Qəbələ dünyanın onlarla şəhəri ilə işgüzar dostluq, qardaşlıq əlaqələri qurub. Buraya təşrif buyuran qonaqların, turistlərin ardı-arası kəsilmir. Özü də ilin bütün fəsillərində. Burada ənənəvi musiqi festivalları, müsabiqələr keçirilir. Qəbələni tez-tez dövlət adamları, tanınmış musiqi xadimləri, diplomatlar, elm və sənət adamları ziyarət edirlər. Qəbələ bu gün nəinki regional, həm də qlobal müstəvidə tanınan, adı hörmətlə çəkilən unikal bir məkana çevrilib, məmləkətimizə baş ucalığı gətirib!

Zülfü İLYASOV,
«İqtisadiyyat» qəzetinin
bölgə müxbiri

Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin gəlirləri 23 168 000,0 min manat, xərcləri 25 190 000,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 22 429 234,0 min manat, yerli gəlirləri 738 766,0 min manat, mərkəzləşdirilmiş xərcləri 24 347 188,0 min manat, yerli xərcləri 842 812,0 min manat) məbləğində təsdiq edilsin.

Maddə 2. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

Sıra №-si	Gəlirlərin mənbələri	Məbləğ (min manatla)
1	2	3
2.1.	Fiziki şəxslərin gəlir vergisi	880 000,0
2.2.	Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2 670 400,0
2.3.	Hüquqi şəxslərin torpaq vergisi	45 000,0
2.4.	Hüquqi şəxslərin əmlak vergisi	211 000,0
2.5.	Əlavə dəyər vergisi	4 194 000,0
2.5.1.	Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi	2 390 000,0
2.6.	Sadələşdirilmiş vergi	322 000,0
2.7.	Aksizlər	982 000,0
2.7.1.	Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər	380 000,0
2.8.	Yol vergisi	114 000,0
2.8.1.	Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi	32 000,0
2.9.	Mədən vergisi	133 000,0
2.10.	Gömrük rüsumları	900 000,0
2.11.	Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar	136 000,0
2.12.	Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar	69 148,0
2.13.	Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər	3 920,0
2.14.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi)	11 364 300,0
2.15.	Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar	8 000,0
2.16.	Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar	8 000,0
2.17.	Dövlət rüsumu	190 000,0
2.18.	Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar	626 600,0
2.19.	Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar	232 600,0
2.20.	Sair daxilolmalar	78 032,0

Maddə 3. Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

(min manatla)

3.1.	Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu	322 000,0
3.1.1.	yol vergisi	114 000,0
3.1.2.	mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi	7 000,0
3.1.3.	idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər	31 000,0
3.1.4.	idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu	50 000,0
3.1.5.	Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu	15 600,0
3.1.6.	nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu	16 200,0
3.1.7.	Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərindən ayrılan vəsait	88 200,0

Maddə 4. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinə vergi daxilolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

Maddə 5. Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergiödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

Maddə 6. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

6.1. bu Qanunun 10-cu maddəsi ilə 2019-cu il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid edilənlərdən başqa);

6.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa), dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun gəlirləri tam həcmdə.

Maddə 7. Bu Qanunun 10-cu maddəsi ilə 2019-cu il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

Maddə 8. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

Sıra №-si	Xərclərin istiqamətləri	Məbləğ (manatla)
1	2	3
8.1.	Ümumi dövlət xidmətləri	3.886.753.836,0
8.1.1.	qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri	827.188.839,0
8.1.2.	beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlükhaqqı xərcləri	191.500.000,0
8.1.3.	elm xərcləri	136.290.498,0
8.1.4.	başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri	90.926.731,0
8.1.5.	dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər	2.334.787.768,0
8.1.6.	yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya	4.700.000,0
8.1.7.	yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya	1.000.000,0
8.1.8.	Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya	300.360.000,0
8.2.	Müdafiə	3.037.618.152,0
8.2.1.	müdafiə qüvvələri	1.494.074.656,0
8.2.2.	milli təhlükəsizlik	156.989.306,0
8.2.3.	müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar	2.800.878,0
8.2.4.	digər kateqoriyalara aid edilməyən xərclər	1.383.753.312,0
8.3.	Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	1.563.486.357,0
8.3.1.	məhkəmə hakimiyyəti	65.291.503,0
8.3.2.	hüquq-mühafizə	1.153.795.408,0
8.3.3.	prokurorluq	64.166.317,0
8.3.4.	digər kateqoriyalara aid edilməyən xidmətlər	280.233.129,0
8.4.	Təhsil	2.285.884.349,0
8.4.1.	məktəbəqədər təhsil	233.823.590,0
8.4.2.	ümumi təhsil	1.289.076.843,0
8.4.3.	peşə təhsili	39.669.994,0
8.4.4.	orta ixtisas təhsili	44.847.216,0
8.4.5.	ali təhsil	46.128.523,0
8.4.6.	əlavə təhsil	2.247.302,0
8.4.7.	təhsil sahəsində digər müəssisə və tədbirlər	630.090.881,0
8.5.	Səhiyyə	1.042.488.474,0
8.5.1.	poliklinikalar və ambulatoriyalar	117.655.553,0
8.5.2.	xəstəxanalar	374.057.416,0
8.5.3.	səhiyyə sahəsində digər xidmətlər	6.816.380,0
8.5.4.	səhiyyə sahəsində tətbiqi tədqiqatlar	5.211.716,0
8.5.5.	səhiyyə sahəsinə aid edilən digər xidmətlər	538.747.409,0
8.6.	Sosial müdafiə və sosial təminat	2.620.387.016,0
8.6.1.	sosial müdafiə xərcləri	2.577.355.340,0
8.6.1.1.	sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait	1.502.732.410,0
8.6.2.	sosial təminat xərcləri	42.971.676,0
8.6.3.	sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar	60.000,0
8.7.	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	359.075.799,0
8.7.1.	mədəniyyət və incəsənət sahəsində fəaliyyət	144.020.165,0
8.7.2.	radio, televiziya və nəşriyyat	63.697.421,0
8.7.3.	bədən tərbiyəsi, gənclər siyasəti və turizm	83.445.406,0
8.7.4.	digər kateqoriyalara aid edilməyən fəaliyyət	67.912.807,0
8.8.	Mənzil və kommunal təsərrüfatı	362.330.273,0
8.8.1.	mənzil təsərrüfatı	54.404.847,0
8.8.2.	kommunal təsərrüfatı	285.029.291,0
8.8.3.	su təsərrüfatı	4.561.000,0
8.8.4.	mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər	18.335.135,0
8.9.	Yanacaq və enerji	7.800.000,0
8.9.1.	enerji kompleksi	6.300.000,0
8.9.2.	yanacaq və enerji kompleksi sahəsi üzrə təcrübə və tətbiqi tədqiqatlar	1.500.000,0
8.10.	Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi	874.230.368,0
8.10.1.	kənd təsərrüfatı	836.359.322,0
8.10.2.	meşə təsərrüfatı	12.448.243,0
8.10.3.	balıqçılıq və ovçuluq	2.996.802,0
8.10.4.	ətraf mühitin mühafizəsi	14.684.206,0
8.10.5.	hidrometeorologiya tədbirləri	7.741.795,0
8.11.	Sənaye, tikinti və faydalı qazıntılar	6.390.661.800,0
8.11.1.	tikinti	6.373.761.800,0
8.11.1.1.	dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)	6.371.200.000,0
8.11.2.	faydalı qazıntılar	12.900.000,0
8.11.3.	geodeziya və xəritəçəkmə	4.000.000,0
8.12.	Nəqliyyat və rabitə	175.784.753,0
8.12.1.	nəqliyyat	125.298.148,0
8.12.2.	rabitə	50.486.605,0
8.13.	İqtisadi fəaliyyət	393.183.000,0
8.13.1.	iqtisadi və kommersiya fəaliyyəti	231.200.000,0
8.13.1.1.	sahibkarlığa dəstək	69.200.000,0
8.13.1.2.	Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri	162.000.000,0
8.13.2.	iqtisadi fəaliyyətin digər sahələri	161.983.000,0
8.14.	Əsas bölmələrə aid edilməyən xidmətlər	2.190.315.823,0
8.14.1.	məqsədli büdcə fondları	322.000.000,0
8.14.1.1.	müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu	322.000.000,0
8.14.2.	ehtiyat fondları	400.000.000,0
8.14.2.1.	Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu	300.000.000,0
8.14.2.2.	Dövlət büdcəsinin ehtiyat fondu	100.000.000,0
8.14.3.	əsas bölmələrə aid edilməyən sair xərclər	1.468.315.823,0
8.14.3.1.	beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər	75.000.000,0
8.14.3.2.	fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər	20.000.000,0
8.14.3.3.	sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər	1.373.315.823,0

Maddə 9. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

Maddə 10. Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 7.316.000.000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 120.800.000,0 manat, yerli xərclər 842.812.000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 6.456.434.000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 104.046.000,0 manat məbləğində təsdiq edilsin.

o cümlədən:

(manatla)

№	Şəhər və rayonların adı	Gəlirlər		Yerli xərclər	Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi	Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi
		Cəmi	o cümlədən: Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ			
	Şəhərlər:					
1	Bakı	6 662 321 000	95 057 000	239 880 000	6 327 384 000	0
2	Gəncə	47 888 000	996 000	40 890 000	6 002 000	0
3	Lənkəran	17 980 000	860 000	17 120 000	0	0
4	Mingəçevir	21 405 000	68 000	14 184 000	7 153 000	0
5	Naftalan	4 196 000	4 000	2 957 000	1 235 000	0
6	Sumqayıt	89 998 000	1 312 000	53 879 000	34 807 000	0
7	Şəki	20 301 000	917 000	18 271 000	1 113 000	0
8	Şirvan	18 406 000	721 000	9 218 000	8 467 000	0
9	Yevlax	14 997 000	1 060 000	6 848 000	7 089 000	0
10	Xankəndi					
	Rayonlar:					
11	Abşeron	40 902 000	144 000	15 993 000	24 765 000	0
12	Ağcabədi	12 047 000	724 000	10 995 000	328 000	0
13	Ağdam	4 563 000	34 000	11 638 000	0	7 109 000
14	Ağdaş	5 554 000	26 000	5 528 000	0	0
15	Ağstafa	4 755 000	56 000	8 945 000	0	4 246 000
16	Ağsu	4 468 000	422 000	6 509 000	0	2 463 000
17	Astara	12 451 000	5 014 000	7 437 000	0	0
18	Balakən	5 303 000	1 472 000	7 692 000	0	3 861 000
19	Beyləqan	8 770 000	37 000	7 082 000	1 651 000	0
20	Bərdə	12 956 000	56 000	12 900 000	0	0
21	Biləsuvar	8 094 000	1 697 000	6 397 000	0	0
22	Cəbrayıl	1 085 000	28 000	3 099 000	0	2 042 000
23	Cəlilabad	7 896 000	42 000	11 564 000	0	3 710 000
24	Daşkəsən	2 735 000	4 000	4 332 000	0	1 601 000
25	Füzuli	6 067 000	19 000	11 126 000	0	5 078 000
26	Gədəbəy	4 928 000	22 000	9 681 000	0	4 775 000
27	Goranboy	4 325 000	10 000	9 900 000	0	5 585 000
28	Göyçay	10 319 000	37 000	10 282 000	0	0
29	Göygöl	4 159 000	9 000	6 879 000	0	2 729 000
30	Hacıqabul	5 892 000	13 000	4 371 000	1 508 000	0
31	Xaçmaz	22 512 000	3 000 000	12 981 000	6 531 000	0
32	Xızı	1 964 000	4 000	3 145 000	0	1 185 000
33	Xocalı	414 000	4 000	1 673 000	0	1 263 000
34	Xocavənd	557 000	36 000	2 665 000	0	2 144 000
35	İmişli	22 660 000	348 000	7 689 000	14 623 000	0
36	İsmayıllı	7 770 000	19 000	7 483 000	268 000	0
37	Kəlbəcər	1 149 000	2 000	3 953 000	0	2 806 000
38	Kürdəmir	7 265 000	17 000	7 248 000	0	0
39	Qax	3 951 000	22 000	9 615 000	0	5 686 000
40	Qazax	10 964 000	39 000	10 925 000	0	0
41	Qəbələ	14 946 000	37 000	7 922 000	6 987 000	0
42	Qobustan	2 807 000	6 000	3 851 000	0	1 050 000
43	Quba	14 471 000	65 000	10 042 000	4 364 000	0
44	Qubadlı	2 515 000	2 000	2 278 000	235 000	0
45	Qusar	7 363 000	30 000	7 333 000	0	0
46	Laçın	1 557 000	73 000	6 215 000	0	4 731 000
47	Lerik	2 143 000	8 000	5 855 000	0	3 720 000
48	Masallı	9 611 000	42 000	9 569 000	0	0
49	Neftçala	7 531 000	32 000	7 499 000	0	0
50	Oğuz	2 763 000	32 000	6 080 000	0	3 349 000
51	Saatlı	8 936 000	10 000	8 644 000	282 000	0
52	Sabirabad	10 972 000	21 000	9 309 000	1 642 000	0
53	Salyan	11 725 000	27 000	11 698 000	0	0
54	Samux	2 897 000	24 000	5 556 000	0	2 683 000
55	Siyəzən	3 727 000	15 000	3 712 000	0	0
56	Şabran	4 846 000	20 000	4 826 000	0	0
57	Şamaxı	8 817 000	29 000	8 788 000	0	0
58	Şəmkir	13 631 000	60 000	19 875 000	0	6 304 000
59	Şuşa	1 030 000	4 000	2 229 000	0	1 203 000
60	Tərtər	4 819 000	15 000	8 934 000	0	4 130 000
61	Tovuz	16 084 000	5 746 000	15 648 000	0	5 310 000
62	Ucar	3 951 000	22 000	7 248 000	0	3 319 000
63	Yardımlı	2 206 000	8 000	4 911 000	0	2 713 000
64	Zaqatala	8 084 000	100 000	12 411 000	0	4 427 000
65	Zəngilan	1 726 000	4 000	2 257 000	0	535 000
66	Zərdab	2 875 000	16 000	7 148 000	0	4 289 000
	Cəmi:	**7 316 000 000**	**120 800 000**	**842 812 000**	**6 456 434 000**	**104 046 000**

Maddə 11. Bu Qanunun 10-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədi ilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

Maddə 12. Azərbaycan Respublikasının 2019-cu ildə dövlət daxili və xarici borcları üzrə ödəniş məbləğlərinin yuxarı həddləri aşağıdakı kimi təsdiq edilsin:

(manatla)

12.1.	Daxili dövlət borcu üzrə	172.616.756,0
12.1.1.	faiz ödənişləri	154.614.772,0
12.1.2.	əsas borc üzrə ödənişlər	18.001.984,0
12.2.	Xarici dövlət borcu üzrə	2.162.171.012,0
12.2.1.	faiz ödənişləri	601.819.146,0
12.2.2.	əsas borc üzrə ödənişlər	1.560.351.866,0

Maddə 13. Azərbaycan Respublikasının 2019-cu il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 500 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 1 000 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 4 000 000,0 min manat məbləğində təsdiq edilsin.

